


"Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var".

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 23 noyabr 2024-cü il №88 (2899) https://mod.gov.az Qiyməti 30 qəpik


## "Azərbaycan Cənubi Qafqazda dayanıqlı sülh üçün əlverişli şərait yaradıb"

*Azərbaycan 2020-ci ildə 44 günlük Vətən müharibəsi və 2023-cü ildə birgünlük antiterror əməliyyatı nəticəsində öz ərazi bütövlüyünü və suverenliyini tam bərpa etməklə Cənubi Qafqazda dayanıqlı sülh, davamlı sabitlik və etibarlı təhlükəsizlik üçün əlverişli şərait, eyni zamanda, daha geniş coğrafiyada yeni əməkdaşlıq əlaqələrinin qurulması üçün mühüm imkanlar yaratmışdır.*

AZƏRTAC xəbər verir ki, bu sözlər Azərbaycan Prezidenti İlham Əliyevin Asiya Siyasi Partiyaları Beynəlxalq Konfransı (ICAPP) 12-ci Baş Assambleyasının iştirakçılarına ünvanladığı məktubda qeyd edilib.

Dövlətimizin başçısının məktubunda bildirilib ki, konstruktiv sülh gündəliyini təşviq edən Azərbaycan bu istiqamətdə əhəmiyyətli təklif və təşəbbüslər irəli sürür, daim prinsipial mövqedən çıxış edərək milli maraqlara uyğun və beynəlxalq hüququn norma və prinsiplərinə əsaslanan səmərəli fəaliyyət həyata keçirir.

"Məlumdur ki, silahlı münaqişələr insan itkisinə, sosial infrastrukturun dağılmasına, bir çox hallarda iqtisadi tənəzzülə və ciddi təhlükəsizlik problemlərinə səbəb olmaqla yanaşı, ətraf mühitə də onilliklər boyu davam edən böyük zərər yetirir", - deyə Azərbaycan Prezidentinin məktubunda vurğulanıb.

## Vətənimizin hər yerində şanlı bayrağımız dalğalanır



Azərbaycanın dünya xəritəsində yerləşdiyi mühüm geostrateji mövqe və zəngin təbii sərvətlər onu hər zaman işğalçı qüvvələr və hegemon dövlətlər üçün əsas hədəfə çevirib. Tarixən məruz qaldığımız hücumlardan, qəhrəman atalarımızın yazdığı tarixdən, millətimizin nümayiş etdirdiyi həmrəylikdən uzun-uzadı danışmaq olar. Lakin bu dəfə regionla heç bir tarixi, mədəni bağlılığı olmayan, havadarları hesabına coğrafiyamızda anidən peyda olan bədnam qonşularımız və onların millətimizin və məmləkətimizin başına gətirdiyi müsibətlərdən, işğal siyasətindən və bunların nəticələrindən danışacağıq. Bizim bədnam qonşularımız ermənilər qeyd olunduğu kimi, tarixən heç bir dövlətçilik, tarixi aspektlərdən (dil, din, mədəniyyət, incəsənət və s.) unikallığı olmayan bir qüvvə kimi, çar Rusiyası və sovet hökumətinin vasitəsilə, regionumuzda yerləşdirildilər. Hələ çar Rusiyası dönəmindən tarixi İrəvan mahalımıza və Vətənimizin müxtəlif yerlərinə səpələnmiş özünü erməni adlandıran insan kütləri, yersiz torpaq iddiaları ilə xalqımıza qarşı çıxış etməyə başladılar.

Sovet dönəmi zamanı tarixi torpaqlarımızda qanunsuz yerləşdirilərək xalqımızın qonşuluq, qonaqpərvərlik təəssübkeşliyindən, humanizm dəyərlərindən sui-istifadə edən ermənilər məskunlaşdırıldığı yerlərdə münbit ərazilərimizi mənimsəməyə, yerli əhalimizi sıxışdırıb sürgün etməyə və digər zorakı əməllərə əl atmağa başladılar. Kökü yüz illəri əhatə edən erməni vəhşiliyi nəticəsində minlərlə soydaşımız soyqırım qurbanı oldu, öz doğma elindən, evindən didərgin düşdü, amansız işgəncələrə məruz qaldı. Tarixə nəzər salsaq, görərik ki, azərbaycanlılara qarşı etnik təmizləmə prosesi hələ XX əsrin əvvəllərindən başlamışdı. 1905-1906-cı, 1918-1920-ci, 1948-1953-cü illərdən minlərlə azərbaycanlı öz yurdundan, evlərindən, indiki Ermənistan ərazisindən sürgün edilib, didərgin salınıb. Belə ki, 1980-ci illərin sonlarından erməni tərəfinin təcavüzü nəticəsində etnik zəmində təxribatlara, terror əməllərinə əl atılmışdır. Belə ki, o zamankı Ermənistanda yaşayan azərbaycanlılar təqiblərə və təzyiqlərə məruz qalaraq deportasiya olunmağa başlayıblar. Erməni zorakılığı nəticəsində soydaşlarımız tarixi yurd yerlərindən zorla qovuldular, onların arasında vəhşicəsinə qətlə yetirilənlər və yaralanaraq ömürlük şikəst qalanlar oldu. Erməni təcavüzü ötən əsrin sonlarında özünün daha amansız dövrünə qədəm qoydu. O dövrdə erməni hərbi və siyasi rəhbərliyinin başında oturaraq, müharibəni və terrorizmi dəstəkləyən ifrat şovinist qüvvələr təcavüzkar əməllərini daha iyrənc formada törətməyə başladılar. Beləliklə, işğalın ən pik dövrü keçmiş sovet imperiyasının süqutu və müstəqilliyimizin bərpası dövrünə təsadüf etdi. Xarici havadarları tərəfindən silahlandırılan və təşkilatlandırılan ermənilər, dövlət rəhbərliyimizin səriştəsizliyindən istifadə edərək öz işğal miqyasını daha da genişləndirdi. Bu müddət ərzində torpaqlarımızın 20 faizi işğal edildi, Əsgəranın Meşəli kəndi, Şuşanın Malıbəyli, Başlıbel yaşayış məntəqələrində və Xocalıda ermənilər tərəfindən soydaşlarımıza qarşı heç bir insanlığa sığmayan vəhşiliklər, kütləvi qətliamlar və soyqırımlar həyata keçirildi. İşğal olunan tarixi yurd yerlərimizdə terrorçular öz qanunsuz əməllərini xüsusi amansızlıqla törədirdilər.

Bir sözlə, ölkəmiz gün keçdikcə uçuruma doğru gedirdi. Ölkəyə Böyük Xilaskar lazım idi. Belə olan halda, xalqın yekdil istəyi ilə Dahi Rəhbər Heydər Əliyev hakimiyyətə qayıtdı. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev ölkədəki mürəkkəb şəraitin hökm sürdüyünün fərqində idi və bunun üçün də təxirəsalınmaz addımların atılması zəruri idi. Beləliklə, ölkənin dirçəlməsi, hökumətdə köklü idarəçilik sisteminin qurulması, ordunun yenidən komplektləşdirilməsi, iqtisadi sabitliyin yaradılması, sosial rifahın təmin olunması və digər zəruri məsələlərlə bağlı mühüm addımlar atıldı. Çünki bu kimi işlər görülməyəcəyi təqdirdə hər keçən gün dövlətimizin parçalanmasına, xalqın uçuruma yuvarlanmasına aparırdı.

Ulu Öndər Heydər Əliyev hakimiyyətə gəldikdən sonra keçirilən uğurlu Horadiz əməliyyatı ilə cəbhədə ilk uğurumuzu qazandıq. Buna baxmayaraq, ölkədə vacib məsələlərin öz həllini tapmasında müharibə ciddi maneə idi. 1994-cü il mayın 12-də atəşkəsə dair razılıq əldə olundu. Dahi Rəhbər Heydər Əliyev uzaqgörənlik və müdrikliklə Azərbaycanın hərtərəfli inkişafı, siyasi və iqtisadi müstəqilliyinin möhkəmləndirilməsi üçün ölkənin sağlam təməllərini yaratmaq kimi vacib vəzifənin öhdəsindən bacarıqla gəldi. Ulu Öndər Heydər Əliyevin yolunu uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin düzgün strategiyası sayəsində yuxarıda sadalanan işlər özünün yeni inkişaf dövrünə qədəm qoydu. Dövlət rəhbərliyi beynəlxalq təşkilatlarla və aparıcı dövlətlərlə konstruktiv əlaqələrin qurulması, müxtəlif sahələr üzrə fəal işlərin aparılması ilə və regional nəhəng layihələrlə Azərbaycanın etibarlı tərəfdaş kimi təkcə regionda deyil, bütün dünyada tanıtdı və ölkəmizin mövqeyini gücləndirdi.

(Ardı 5-ci səhifədə)



3-cü səhifədə

Hərbi institutda elmi-praktik konfrans keçirilib



4-cü səhifədə

Döyüş növbətçiliyi aparan əsgər Vətənimizin sipəridir




6-cı səhifədə

"Təbiətə qayğı, gələcəyə yatırım!"



7-ci səhifədə

25 Noyabr - Kəlbəcər Şəhəri Günüdür

# Azərbaycan Ordusunun Baş Qərargah rəisinin Pakistana işgüzar səfəri



*"IDEAS 2024" 12-ci Beynəlxalq Müdafiə Sərgisi və Seminarında iştirak etmək üçün Pakistanda işgüzar səfərdə olan Azərbaycan Respublikasının müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyev bu ölkənin Birləşmiş Qərargah Rəisləri Komitəsinin sədri general Sahir Şamşad Mirza ilə görüşüb.*

Müdafiə Nazirliyi xəbər verir ki, görüşdə Azərbaycan və Pakistan arasında dostluq və qardaşlıq münasibətləri üzərində qurulan hərbi əlaqələrin cari vəziyyəti, birgə əməkdaşlığın yeni perspektivləri müzakirə edilib, strateji tərəfdaşlığın yüksələn xətlə inkişaf etdiyi vurğulanıb.

Tərəflər, həmçinin münasibətlərin daha da möhkəmlənməsində bu cür görüşlərin əhəmiyyətini qeyd edib və maraq doğuran bir sıra digər məsələlərə dair ətraflı fikir mübadiləsi aparıblar.

* * *

Azərbaycan Respublikasının müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyevin Pakistana işgüzar səfəri çərçivəsində Azərbaycan Ordusunun Baş Qərargah rəisi Pakistan Aviasiya Kompleksinin sədri vitse-marşal Hakim Raza ilə görüşüb.

Tərəflər görüş zamanı ölkələrimiz arasında müxtəlif istiqamətlərdə olduğu kimi hərbi sahədə də əməkdaşlığın uğurla davam etdirildiyini və geniş imkanlara malik olduğu bildirib, eləcə də qarşılıqlı maraq doğuran digər məsələlər barədə müzakirələr aparıblar.

Görüşdə Azərbaycan Respublikasının Pakistan İslam Respublikasındakı Fövqəladə və Səlahiyyətli səfiri cənab Xəzər Fərhadov da iştirak edib.




* * *

Pakistan İslam Respublikasında səfərdə olan Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyev Karaçi şəhərində bu ölkənin Silahlı Qüvvələrinin Quru Qoşunları komandanı general Asim Munir ilə görüşüb.



General-polkovnik K.Vəliyev dost və qardaş ölkə Pakistanla bütün sahələrdə, o cümlədən hərbi sahədə əməkdaşlığın inkişaf etdirilməsinin Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin diqqət mərkəzində olduğunu xüsusi vurğulayıb.

Görüşdə ikitərəfli hərbi əməkdaşlığın genişləndirilməsi və birgə təlimlərin intensivliyinin artırılmasının vacibliyi bildirilib, habelə ölkələrimiz arasında strateji tərəfdaşlığın yüksələn xətlə inkişaf etdiyi qeyd olunub.

Azərbaycan Ordusunun Baş Qərargah rəisi Pakistanın şimal-qərbində yerləşən Tirah vadisində baş vermiş terror hücumunu pisləyib, həlak olanlarla bağlı Pakistan tərəfinə başsağlığı verib.

Azərbaycan ilə Pakistan arasında hərbi sahədə əməkdaşlığın müzakirə edildiyi görüşdə terrorla mübarizə və təhlükəsizlik məsələlərinə dair ətraflı fikir mübadiləsi aparılıb.

# Dəniz xüsusi təyinatlılarımız "SAT-SAS-2024" təlimində iştirak edir



2024-cü ilin hazırlıq planına əsasən, Azərbaycan və Türkiyə respublikalarının Hərbi Dəniz Qüvvələrinin (HDQ) sualtı hücum və sualtı müdafiə bölmələri ilə qardaş ölkədə "SAT-SAS-2024" birgə təlimi keçirilir.

Müdafiə Nazirliyi xəbər verir ki, Türkiyə Respublikasının Marmaris şəhərinin Aksaz dəniz bazasında keçirilən birgə təlimdə dəniz xüsusi təyinatlıları hədəf gəmilərinin zəbt edilməsi üzrə tapşırıqları yüksək peşəkarlıqla yerinə yetirib.

Təlimin növbəti günlərində plana əsasən, hər iki ölkənin xüsusi təyinatlı bölmələri quru və dəniz döyüş taktikalarının işlənməsi, helikopterdən enmə üsullarının yerinə yetirilməsi, şərti sahil ərazisinin zəbt edilməsi, partlamamış döyüş sursatlarının və dəniz minalarının axtarışı, eləcə də məhv edilməsi üzrə tapşırıqları icra edəcəklər.



Qeyd edək ki, birgə təlim noyabrın 29-dək davam edəcək.

# "Lüksemburqun parlamentində Azərbaycan əleyhinə qəbul olunan qətnamə riyakarlığın bariz nümunəsidir"

Noyabrın 11-də Azərbaycanda işə başlayan və dünyanın 200-dək ölkəsini təmsil edən nümayəndələri bir araya gətirən BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) uğurla davam etməsi ölkəmizin dünya miqyasında nüfuzunun bugünbü daha artmasına və qlobal əhəmiyyətli məsələlərin həllində yaxından iştirak etməsinin sübutudur.

Məhz bu amillər, xüsusilə də ərazi bütövlüyünü və suverenliyini bərpa edərək erməni separatizminə son qoyan, BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsinin icrasını öz gücü hesabına yerinə yetirən Azərbaycanın yürütdüyü müstəqil və prinsipial xarici siyasət kursu Ermənistanın əsas havadarı Fransa və onun "çətiri" altında olan, diktəsi ilə hərəkət edən "cırtdan" Lüksemburq kimi dövlətləri ölkəmizə qarşı riyakar əməllərə sövq edir.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Milli Məclisin deputatı Zaur Şükürov söyləyib.

Deputat vurğulayıb ki, bu xüsusda, Lüksemburq parlamentində ölkəmizə qarşı yönəlmiş qətnamə siyasi riyakarlığın bariz nümunəsi olmaqla, erməni lobbisinin maliyyə dəstəyi və Fransanın diktəsi ilə hərəkət edən, fəaliyyətlərində ikili standartları rəhbər tutan Lüksemburq parlamentarilərinin ikiüzlü siyasətini bir daha təsdiqləyir.

Qətnamədə yer almış əsassız, heç bir məntiqə sığmayan yalan iddialar bir daha göstərir ki, Ermənistanın Azərbaycan torpaqlarını işğal altında saxladığı dönəmdə azərbaycanlılara qarşı törətdiyi ağır cinayətlərə, soyqırımına, ərazilərimizin vəhşicəsinə viran qoyulmasına, tarixi, mədəni, dini abidələrimizin məhv edilməsinə, təbii ehtiyatlarımızın talan olunmasına, ekoloji cinayətlərə, öz dədə-baba yurdu olan indiki Ermənistan ərazisindən didərgin salınmış həmvətənlərimizin fundamental hüquqlarının pozulmasına onilliklər boyu göz yuman Lüksemburq parlamentariləri erməni lobbisindən daha çox maliyyə yardımı almaq uğrunda "yarışa" qoşulublar.

"Prezident İlham Əliyev noyabrın 12-də COP29-un Liderlər Sammitinin açılış mərasimində və noyabrın 13-də COP29 çərçivəsində inkişaf etməkdə olan kiçik ada dövlətlərinin Sammitində çıxışları zamanı ölkəmiz əleyhinə səfərbər olan bu riyakar qüvvələrə tutarlı şəkildə cavab verdi.

Lüksemburq parlamentinin qərəzli qətnaməsini qəti şəkildə qınayır və bu ölkənin parlamentarilərini belə riyakar əməllərdən çəkinməyə çağırırıq. Reallıqdan uzaq olan bu şəxslər nəhayət anlamalıdırlar ki, qlobal miqyasda etibarlı tərəfdaşa çevrilən və Prezident İlham Əliyevin mükəmməl liderliyi sayəsində hədəflərinə uğurla çatan Azərbaycanla hədə dilində, amiranə tərzdə danışmaq heç bir nəticə verməyəcək", - deyə deputat vurğulayıb.

# Hərbi institutda elmi-praktik konfrans keçirilib







Heydər Əliyev adına Hərbi İnstitutda Zəfər Gününün dördüncü ildönümünə həsr olunmuş "İkinci Qarabağ müharibəsinin hərbi-siyasi dərsləri: əldə olunan uğurlar və qarşıda duran vəzifələr" mövzusunda III respublika elmi-praktik konfransı keçirilib.

Müdafiə Nazirliyi xəbər verir ki, konfransda Heydər Əliyev adına Hərbi İnstitutun zabit, professor-müəllim heyəti ilə bərabər, respublikanın 20-yə yaxın təşkilatının rəhbər və nümayəndə heyəti iştirak edib.

Konfrans iştirakçıları əvvəlcə hərbi institutun qərargahı qarşısında ucaldılan xalqımızın Ümummilli Lideri Heydər Əliyevin abidəsini və Vətən müharibəsində şəhid olmuş hərbi qulluqçularımızın xatirəsinə salınmış abidə kompleksini ziyarət edərək əklillər qoyublar.

Konfrans Ulu Öndərin və Azərbaycan Respublikasının müstəqilliyi və suverenliyi uğrunda şəhid olanların əziz xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi və Dövlət Himninin ifası ilə başlanıb.

Sonra Heydər Əliyev adına Hərbi İnstitutun rektoru polkovnik Ümüdvar Quliyev konfransda giriş nitqi ilə çıxış edərək, 2020-ci il sentyabrın 27-də başlanan, 44 gün davam edən və Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Ordusunun qələbəsi ilə başa çatan Vətən müharibəsindən danışaraq bildirib ki, Ali Baş Komandanın qətiyyəti, xalqımızın birliyi, Müzəffər Ordumuzun gücü sayəsində, şəhidlərimizin qanı-canı bahasına əldə olunmuş bu Qələbə ilə dünya azərbaycanlılarının çoxillik həsrətinə son qoyulub.




Daha sonra İkinci Qarabağ müharibəsinə həsr edilmiş film nümayiş olunub.

Konfransda çıxış edən məruzəçilər İkinci Qarabağ müharibəsində qələbəni şərtləndirən səbəblərdən, döyüşlərin aparılmasında peşəkarlıqdan, müasir döyüş taktikalarından, müharibənin beynəlxalq münasibətlər və beynəlxalq hüquq baxımından dəyərləndirilməsindən, müharibə dövründə təhlükəsizliyin təmin olunmasında xüsusi xidmət orqanlarının fəaliyyətindən və digər mövzulardan ətraflı danışıblar.

# Vətən üçün yaşanılan ömrün sonu olmur

1993-cü ilin dekabrında Bakı şəhərində anadan olmuşdu. 162 saylı orta məktəbdə oxuyanda yoldaşlarından fərqlənməyən yeniyetmənin düşüncələri müəllimlərinin xoşuna gəlirdi. Bu düşüncələrdə gerçək nağıllar da vardı, Vətən də vardı, Vətənin ağrıları da vardı, torpağı yaralayan qəlpələr də vardı, döyüşən oğullar da. Bu nağıllarda göydən üç alma düşmürdü, kəndlərin, şəhərlərin göylərindən torpağa mərmilər tökülürdü, torpaq yaralanırdı, torpağın yaralarının məlhəmi yaralı döyüşçünün qanı olurdu...

Bilal Qənbərov müddətli həqiqi hərbi xidmətdə əsgər yoldaşlarına deyərdi ki, Ali Baş Komandan döyüş əmri verərsə, biz də gerçək nağılların qəhrəmanı olacağıq...

Müddətli həqiqi hərbi xidmətini başa vurduqdan sonra müxtəlif idarələrdə işlədi, son peşəsi mexaniklik oldu; nasazları sazlayır, işlək vəziyyətə gətirirdi - onlara yeni ömür verirdi...

2020-ci il sentyabrın 27-də Azərbaycan Ordusunun hissələri Ermənistanın torpaqlarımıza növbəti hücumunun qarşısını qətiyyətlə aldı. Ali Baş Komandanın əmri ilə əks-hücum əməliyyatı başladı. Bu, Vətən müharibəsi idi. Ermənistanın regionda status-kvonu saxlamaq niyyəti onun işğal etdiyi ərazilərdə yaratdığı, möhkəmləndirdiyi, yeniləşdirdiyi mühəndis-istehkam sədləri ilə təsdiqlənirdi. "... Bəzi yerlərdə onların minalarla dolu beş, digər yerlərdə isə yeddi müdafiə səddi var idi", - Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Şuşada televiziya kanalına verdiyi müsahibədə belə dedi.

Azərbaycan əsgəri bu sədləri dağıtdı, mövqe qələbələri qazandı...

Oktyabrın 28-də döyüşlərə könüllü getmək üçün Bilal Xanlar oğlu Qənbərov Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Səbail rayon İdarəsinə müraciət etdi. Səhəri gün dan yeri söküləndə könüllülər komandanlığın qərarına əsasən 49 saylı orta məktəbin həyətinə toplaşmışdılar. Bu məktəbin həyətindən döyüşə mütəşəkkilliklə yola düşəcəkdilər. Kövrəklik vardı, kövrələn yoxudu. Könüllüləri döyüşə kövrəkliyi üstələyən qürurla, inamla yola salırdılar. Bilal anasına, atasına baxmışdı, "Qələbəylə qayıdacağıq!" demişdi. Ad günü idi. Anası da, atası da Bilalı iki dəfə öpüb döyüşə yola saldılar...

Oktyabrın 3-də Füzulidəydilər.

"Ötən əsrin əvvəllərində ulu babam Borçalıda "Erməni qırılan yer"də mərdliklə döyüşüb, el-oba ona da bərəkallah deyib. Elə döyüş ki, ellər-obalar sənə də afərin desin...". Atam məni döyüşə anadan olduğum gün belə uğurladı", - Bilal könüllü əsgərlərə belə deyirdi. Sabah döyüşə gedəcəkdilər...

Dan yeri söküləndə hücum əmri verildi. Hamısının barmağı avtomatın tətiyini Vətən adından sıxırdı. Hamısı Vətən adından düşmənin mövqelərini dağıtmaq, Qələbəyə yol açmaq qətiyyətiylə döyüşürdü. Gizir Bilal Qənbərov da döyüşənlərin sırasındaydı. Onlar üçün müharibənin ilk döyüşü idi (Döyüş yolunun başlanğıcı ilk döyüşdü, zabiti döyüşçü, giziri döyüşçü, əsgəri döyüşçü edən ilk döyüşün başlandığı, ilk güllənin atıldığı anlar heç zaman unudulmur. Bu anlara döyüşçü ömründən döyüşən ömrünə düşən qüdrət deyərdim...). Döyüşçülər düşmənin müqavimətini qırdı. Gizir Bilal Qənbərov cəsarətlə döyüşmüşdü...

İlk döyüşlərdən sonra gizir Bilal Qənbərov da afərin sözünü eşidənlərin sırasında olmuşdu.

Daşaltıda, Şuşaya aparan yolda ermənilərin mövqeləri vardı. 1992-ci ilin yanvarında, Daşaltı əməliyyatında onlarla əsgərimiz, gizirimiz, zabitimiz şəhid olmuşdu. Vətən müharibəsi döyüşlərində onların ruhu da döyüşənlərin sırasındaydı..

Bilal iki döyüşçü ilə kəndin yuxarı hissəsində müqavimət göstərənlərlə atışırdı. Ermənilik (ermənilər, ermənilərin sırasına cəlb olunmuş muzdlular) azərbaycançılığın (Vətənə sədaqəti ömür bilənlərin) qarşısını saxlamağa çalışırdı. Bacarmazdı, bacarmayacaqdı, bacarmadı - bu sədaqət axın idi, nəhr idi, qarşısıalınmazlıq idi...

Daşaltını da ermənisizləşdirdilər...

Döyüşçülərin döyüş əzmini nə ilə, necə müqayisə edəsən? - çətindi. Bu əzm illərin istəyiydi, minlərin istəyi olmuşdu, xalqın istəyiydi. Daşaltıdan ayrılan yollar Şuşaya aparırdı.

Dağlar aşmışdılar, dərələr, meşələr keçmişdilər. Döyüş üçün səssiz-səmirsiz gəlmişdilər. Şuşa uğrunda döyüşürdülər. Yüngül silahlarla döyüşürdülər, ağır mənəvi cinayətlərinə görə düşməni məhşər ayağına çəkiblər. Noyabrın 4-ü idi. Bilal Qənbərov ağır yaralandı, igid döyüşçü şəhid oldu...

Şuşanın işğaldan azad edildiyini görə bilmədi Bilal...

Bilal Qənbərov Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə "Füzulinin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə", "Vətən uğrunda", "Cəsur döyüşçü" medalları ilə təltif edilib...

Noyabrın 8-də Şuşa işğaldan azad olundu. İkinci Qarabağ müharibəsi başa çatdı. Xalq da, şəhidlərin ruhu da imzalanan üçtərəfli bəyanatla bəyan edilənlərin Azərbaycan Ordusunun gücünün, Azərbaycan dövlətinin qətiyyətinin, Azərbaycan dövlətçiliyinin qüdrətinin zəmanəti ilə tam yerinə yetiriləcəyinə əmindir.

**Rəşid HÜSEYNOV**
**"Azərbaycan Ordusu"**

# "Bayraktar TB3" dünya aviasiya tarixində ilkə imza atıb

Türkiyənin "Baykar" şirkəti tərəfindən yerli imkanlarla istehsal olunan "Bayraktar TB3" yeni nəsil silahlı pilotsuz uçuş aparatı (SİHA) qardaş ölkənin digər milli istehsalı olan "TCG Anadolu" hərbi amfibiya gəmisi üzərindən ilk uçuş testini uğurla başa vurub. Bununla da "Bayraktar TB3" dünya aviasiya tarixində SİHA olaraq ilk dəfə qısa uçuş-enmə zolağına malik dəniz vasitəsində qalxış və enmə manevrini uğurla həyata keçirə bilib.

AZƏRTAC xəbər verir ki, "Bayraktar TB3" indiyə qədər həyata keçirilən test uçuşlarında ümumilikdə 700 saatdan çox havada qalıb. Türkiyənin milli SİHA-sı ötən il dekabrın 20-də həyata keçirilən uzun uçuş testində isə yerə enmədən 32 saat havada qalaraq 5 700 kilometr məsafə qət edib.

"Bayraktar TB3" bu ilin mart ayında Türkiyənin texnologiya nəhənglərindən "Aselsan" tərəfindən yerli imkanlarla təkmilləşdirilən, dünyadakı müvafiq sistemlərə nisbətən ən yüksək performansa sahib "ASELFLIR-500" Elektro-Optik Kəşfiyyat, Nəzarət və Hədəfləmə Sistemi ilə təchiz edilib.

*Reportaj*

# Döyüş növbətçiliyi aparan əsgər Vətənimizin siprəridir

**Azərbaycan Respublikasının Prezidenti İlham ƏLİYEV:**

*“Bu Qələbəni bizə bəxş edən qəhrəman əsgər və zabitlərimiz bizim qürur mənbəyimizdir. Onların qəhrəmanlığı, onların şücaəti, fədakarlığı artıq dastana çevrilib”.*



Azərbaycan xalqının tarixi daim qəhrəmanlıq nümunələri ilə zəngin olub. Xalqımız hər zaman öz Vətənini göz bəbəyi kimi qorumağa, lazım gələrsə, canlarını torpaqlarımızın ərazi bütövlüyü uğrunda fəda etməyə hazır olan oğullar yetişdirib. Ötən yazıda Vətən və vətənpərvərlik anlayışının Azərbaycan əsgərinə bağlılığı haqqında kiçik bir şərh vermişdim. Ənənəyə sadiq qalaraq, qəhrəmanlıq haqqında kiçik bir haşiyə çıxmaq istərdim. Nədir qəhrəmanlıq? Vətənə məhəbbət kimi ülvi hiss və duyğulardan güc alan qəhrəmanlıq igidlik, qoçaqlıq, rəşadət, cəsurluq deməkdir. Əslində, tariximizin dərinliklərə uzanan qatlarından gəlir qəhrəmanlıq.

1990-cı ilin 20 Yanvarında da mərd oğul və qızlarımızın Vətənimizin müstəqilliyi uğrunda ayağa qalxmaları, təpədən dırnağadək silahlanmış qoşunların yolu üstündə əliyalın canlı sədd qurmaları, 44 günlük Vətən müharibəsində gözlərini qırpmadan təki “Vətən sağ olsun!” deyən həmvətənlərimizin göstərdiyi igidlik və şücaət əsl qəhrəmanlıq nümunəsi deyilmi? Cavanşir, Babək, Mübariz, Polad, Samid, Orxan və adlarını sadalamadığım neçə-neçə igid oğullarımızın keçdikləri döyüş yolu deməyə əsas verir ki, Azərbaycan xalqı qəhrəman xalqdır.



Qəhrəmanlığın özəyi isə Vətənə məhəbbət və vətənpərvərlikdir. Çünki bu amillər insanda fədakarlıq, qəhrəmanlıq və məğlubedilməzlik hissi yaradır. Dediklərimizin Aprel döyüşləri, Günnüt zəfəri, Vətən müharibəsi və digər əməliyyatlarda bir daha şahidi olduq. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin dediyi kimi: "...Elə bir gənc nəsil yetişdirdik ki, Vətən, torpaq uğrunda ölümə getməyə hazır idi və ölümə də gedirdi... Həm üç il bundan əvvəl, həm son üç il ərzində, həm də sentyabr ayında keçirilmiş antiterror əməliyyatı zamanı Azərbaycan əsgəri, zabiti əsl qəhrəmanlıq, vətənpərvərlik, fədakarlıq göstərmişdir".

Qəhrəmanlıqdan danışarkən ilk ağla gələn Vətən müdafiəçiləridir. Hər biri düşmənə keçilməz sədd olan oğullarımızdır. O oğullar ki, gecə-gündüz ərazi bütövlüyümüzün keşiyində qətiyyətlə dayanır, Vətənimizə sipər olurlar.

...İstiqamətimiz öz sələflərinin yolunu şərəflə davam etdirən, isti-soyuq demədən Vətən torpaqlarını qoruyan, düşmənə gözdağı olan həmin oğullarımızın yanınadır.

Müəyyən bir məsafəni qət etdikdən sonra döyüş mövqeyində növbətçilik aparan əsgərlərimizi görürük. Havanın soyuq olmasına baxmayaraq, hərbi qulluqçularımız çətin dağlıq relyefdə xidmət etməkdən qürurlanırlar. Vətən müharibəsi və digər uğurlu əməliyyatlarda düşmənə gözdağı olan igid oğullarımız Vətənimizin suverenliyi, ərazi bütövlüyünə qarşı hər hansı bir təxribatın qarşısını almağa daim hazırdırlar.

Mövqedə müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kiçik çavuş Nail Quliyev şəxsi heyəti təlimatlandırır, onlara təhlükəsizlik qaydalarını çatdırır. Döyüş növbətçiliyində ayıq-sayıq olmalarını, vəzifə borclarını dəqiq yerinə yetirmələrini, hər hansı bir hadisə baş verən andа isə dərhal məruzə etmələrini bildirir. Fürsətdən istifadə edib Nailə yaxınlaşdım. Söhbətimiz zamanı öyrəndim ki, o, əslən Tovuz rayonundandır. Doğulub boya-başa çatdığı rayonun hər zaman atəşə tutulduğunu, uşaqlığının atəş səsləri ilə keçdiyini vurğulayır.

Nail bildirir ki, torpaqlarımızı göz bəbəyi kimi qoruyan igidlərimizin hər biri nümunəvi xidmət edir, vəzifə borclarına məsuliyyətlə yanaşır. "Gördüyünüz kimi, hal-hazırda bizimlə üzbəüz qarşı tərəfin mövqeləridir. Şəxsi heyət ehtimal olunan istənilən təxribatın qarşısını qabaqcadan almaq məqsədilə sutka boyu qarşı tərəfin bütün fəaliyyətlərini daimi müşahidə altında saxlayır. Hər biri üzərinə düşən bütün vəzifələrin öhdəsindən qətiyyətlə gəlir. Keçirilən dərslərin, çöl çıxışlarının və təlimlərin sayəsində onlar artıq peşəkar döyüşçü kimi formalaşıblar. Azərbaycanın hərb tarixinə qızıl hərflərlə yazılan, xalqımızın qürur mənbəyi olan 44 günlük Vətən müharibəsi bunun bariz nümunəsidir. Döyüşlər zamanı bütün dünya məğrur, qorxmaz Azərbaycan əsgərinin gücünü gördü. Bununla da düşmən də, onun havadarları da anladı ki, heç kim bizim torpaqlarımıza əl uzada bilməz".



Əsgər Nihat Hüseynli deyir ki, hər bir Azərbaycan vətəndaşı doğma Vətəninə olan övladlıq borcunu ödəməlidir. "Xidmətə gəlməmişdən əvvəl hər kəs hərbi xidmətin çətin, məsuliyyətli, bir o qədər də qürurlu olduğunu deyirdi. Xidmətə başladıqdan sonra gənc əsgər hazırlığı dövründə hərbin sirlərinə dərindən yiyələnməyə başladım. Mənə təhkim olunan silahın taktiki xüsusiyyətlərini öyrəndim. Çünki bilirdim ki, əsgər yoldaşımdan sonra mənim ən yaxın dostum məhz mənə təhkim olunmuş silahdır. Döyüş mövqeyimizin çətin dağlıq ərazidə yerləşməsinə baxmayaraq, burada bizim üçün hərtərəfli şərait yaradılıb. Sosial-məişət şəraitimiz olduqca yüksək səviyyədədir. Bundan başqa, komandirlərimiz bizə doğma münasibət göstərirlər. Bütün problemlərimizlə yaxından maraqlanır, xidmətimizi düzgün təşkil etməyimiz və hər zaman intizamlı olmağımız üçün öz tövsiyələrini əsirgəmirlər. Bu gün digər əsgər yoldaşlarım kimi, Qalib Azərbaycan Ordusunun sıralarında xidmət etdiyim, döyüş mövqeyində torpaqlarımızın keşiyində dayandığım üçün qürurluyam".



Ağsu rayonundan müddətli həqiqi hərbi xidmətə çağırılan əsgər İbrahim Bəkirov xidmət müddətinin xeyli hissəsini geridə qoyub. O, hərbi xidmətdə keçirdiyi hər bir günün yaddaşına ayrıca həkk olunduğunu deyir. "Burada əsgər yoldaşlarımla keçirdiyim günlər, etdiyimiz söhbətlər mənim yaddaşımdan heç vaxt silinməyəcək. Ordu sıralarında xidmət etdikcə bir çox müsbət keyfiyyətlərə yiyələnmişəm. Onlardan biri və ən önəmlisi isə vətənpərvərlik hissidir. Düzdür, məktəbli olduğum vaxtlarda müəllimlərimiz bizi bu ruhda tərbiyələndiriblər. Amma burada tamam fərqli hisslər yaşayırsan. Həmçinin çətinliklərə dözməyi, qarşına qoyduğun məqsədə nail olmağı və digər üstün keyfiyyətləri qazanmışam. Artıq xidmətimin çox hissəsini başa vurmuşam. Əminəm ki, tərxis olunduqdan sonra bu günlər üçün çox darıxacağam".

Ağdam rayonundan ordu sıralarına çağırılan əsgər Elnur Əliyev artıq bir neçə aydır ki, Vətənə xidmət edir. O, qarşıya qoyulan bütün tapşırıqların öhdəsindən layiqincə gəlməyə, nümunəvi xidməti ilə hər zaman digər əsgər yoldaşlarına örnək olmağa çalışır. "Xidmətə başladığım ilk gündən etibarən məqsədim xidmətimlə seçilmək və Azərbaycan əsgəri adına layiq olmaq olub. Bunun üçün hər zaman intizamlı olmağa, verilən bütün tapşırıqları vaxtlı-vaxtında yerinə yetirməyə çalışıram".

"Mən də Vətənimizin müdafiəsində dayanan igid Azərbaycan əsgəri adını daşımağımla fəxr edirəm" - əsgər Ehtiram Təhməzov belə deyir. - Xidmətdə olduğum müddət ərzində komandirlərimin rəğbətini və çoxlu dostlar qazanmışam. Deyirlər ki, əsgər dostluğu əbədidir. İnanıram ki, burada qazanılan yoldaşlıq heç bir zaman unudulmayacaqdır.

Əsgərlərimizlə söhbətdən, onların Vətənə olan sevgisi haqqında söhbətlərdən doymaq olmur. Hər birinin ürəyi Vətən eşqi ilə döyünür. Hər biri bir an belə düşünmədən bu müqəddəs amal uğrunda canını belə qurban verməyə hazırdır. Təki Vətən torpaqlarımız azad, ərazi bütövlüyümüz tam, müstəqilliyimiz əbədi olsun. Cəsur Vətən müdafiəçiləri ilə sağollaşıb, yolumuza davam edirik. İgid qardaşlarımıza xitabən deyirəm:

***Bəlkə də, borcundan***
***çıxmadım, Vətən,***
***Ömür bahar deyil ki,***
***bir də qayıtsın.***
***Öləndə qoynunda qoy***
***ölüm ki, mən,***
***Çürüyüm, bir ovuc***
***torpağın artsın...***

**Baş leytenant**
**Elçin İMANOV**
**"Azərbaycan Ordusu"**

# Vətənimizin hər yerində şanlı bayrağımız dalğalanır

(Əvvəli 1-ci səhifədə)

Birləşmiş Millətlər Təşkilatı, ATƏT, Avropa Şurası, Avropa Birliyi və digər hegemon təşkilatlarla yanaşı, dünyanın aparıcı dövlətləri də bu işğalı qətiyyətlə pisləmiş, yaranan vəziyyətlə bağlı müxtəlif bəyanatlar səsləndirilmişdir. Buna baxmayaraq, qəbul edilən qətnamələrin icrasız qalması, təcavüzkara qarşı konkret tədbirlərin görülməməsi erməni hərbi-siyasi rəhbərliyinin əl-qolunu daha da açdı. Belə olan təqdirdə də, gün keçdikcə Ermənistan silahlı birləşmələri tərəfindən təxribatların sayı artmağa, miqyası daha da böyüməyə başladı.

Ötən illər ərzində ölkə rəhbərliyimiz bu münaqişənin sülh və ədalət yolu ilə həll olunmasında böyük təşəbbüs göstərdi. Lakin danışıqlar nəticəsiz qaldı, əksinə, uzadılan mənasız danışıqlar erməni tərəfinin xeyrinə idi. Düşmən anlamalı idi ki, Ulu Öndər Heydər Əliyev və Müzəffər Ali Baş Komandan İlham Əliyevin də dediyi kimi, Azərbaycan işğalla barışmaq fikrində deyildi və səbrimiz də sonsuz deyildi.

“Sülh istəyirsənsə, müharibəyə hazır ol” məsələnin təsdiqi olaraq ölkə rəhbərliyi tərəfindən seçilən prioritet istiqamətlərdən biri də ordu quruculuğunun inkişafı idi ki, bu sahə də fundamenti sağlam iqtisadiyyata söykənirdi. Ötən müddət ərzində ordumuzun arsenalı ən müasir silah və hərbi texnikalarla gücləndirildi, şəxsi heyətin hərbi bilik və bacarıqlarının o cümlədən, döyüş ruhunun artırılması məqsədilə təxirəsalınmaz işlər görüldü.

2016-cı il aprel ayının əvvəlində erməni tərəfi yeni təxribata əl atdı. Düşmən aprelin 2-də bölmələrimizin və ondan uzaqda yerləşən mülki əhalimizin cəmləşdiyi ərazilərə atəş zərbələri endirdi. Düşmən təxribatı nəticəsində aralarında azyaşlılar da olmaqla dinc sakinlərimiz həlak oldular. Ordumuzun şəxsi heyəti buna cavab olaraq düşmənin mifi olan “keçilməz” sədlərini yararaq, strateji əhəmiyyətli yüksəklikləri düşməndən azad etdi. Əks-həmlə nəticəsində Füzuli, Cəbrayıl və digər ərazilər düşməndən təmizləndi. Strateji Lələtəpə yüksəkliyi bölmələrimiz tərəfindən işğaldan azad olundu. Ordumuz növbəti uğurunu 2018-ci il Naxçıvan Muxtar Respublikasının ərazi inzibati vahidi olan Şərur rayonunun Günnüt kəndini azad etməklə qazandı. Bununla da dövlət sərhədindəki əlverişli mövqelər bölmələrimizin nəzarəti altına keçdi. 2020-ci il iyul ayında Tovuz istiqamətində baş verən döyüşlər zamanı ordumuzun şəxsi heyətinin göstərdiyi şücaətdən dərs çıxarmayan, erməni silahlı birləşmələri hər keçən gün öz süqutunu daha da yaxınlaşdırırdı.

Ermənistanın 2020-ci il 27 sentyabr tarixində törətdiyi genişmiqyaslı təxribatlar, səbir kasasının axrıncı damlası oldu. Təxribatlar nəticəsində yaşayış məntəqələrimiz, döyüş mövqelərimiz müxtəlif çaplı silahlardan, o cümlədən minaatan və artilleriya qurğularından intensiv atəşə tutuldu, nəticədə mülki vətəndaş və hərbi qulluqçularımız arasında dünyasını dəyişənlər oldu. Həlak olanlar sırasında yenə azyaşlı uşaqlar da var idi. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən Azərbaycan Ordusuna dərhal bütün cəbhə boyu əks-hücuma keçmək əmri verilmiş, düşmən tərəfindən dövlətimizə və xalqımıza təhdid yarada biləcək mövqelərin zərərsizləşdirilməsi, düşmənin döyüş aktivliyinin qarşısının alınması, mülki əhalinin təhlükəsizliyinin təmin edilməsi istiqamətində adekvat tədbirlərin görülməsi tapşırılmışdı. Ermənistan yaranan vəziyyəti "öz xeyrinə dəyişdirmək", ictimaiyyətdə formalaşan neqativ abu-havanı düzəltmək üçün ölkədə hərbi vəziyyət və ümumi səfərbərlik elan etdi. Bu artıq genişmiqyaslı əməliyyatın başlaması demək idi. Sonradan həmin əməliyyat "Dəmir yumruq" adlandırıldı. Bu yumruq xalq-dövlət-ordu birliyinin vəhdətindən yaranmış, tarixi ədaləti, beynəlxalq hüququ və ən əsası ərazi bütövlüyümüzün təmin olunmasını şərtləndirən zəfər yürüşümüzün əsas simvoluna çevrilmişdi. Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyev mütəmadi olaraq xalqa müraciət edirdi. Dövlət başçısının hər müraciəti növbəti qələbənin müqəddiməsi idi. 30 il müddətində milyonlarla dollar hesabına qurulan "təmas xətti", müxtəlif pilləli mühəndis-istehkam sədləri peşəkar ordumuz tərəfindən qısa müddətdə yarıldı, nəticədə qarşıda duran düşmən qüvvələri darmadağın edildi. Güclü hərbi istehkamlar, müxtəlif maneələr, mühəndis-istehkam xətləri, sədlər, təpələr ordumuzun qisas hissi qarşısında ciddi müqavimət vasitəsi deyildi. Ordumuz hər gün irəliləyir, döyüş meydanından müjdəli xəbərlər gəlirdi. Müasir dövrün tələblərinə uyğun olan döyüş vasitələri və hərbi texnikalarla düşmənə ciddi zərbələr endirilirdi. Bir sözlə, döyüşçülərimiz düşməni zərərsizləşdirir, onları tarixi torpaqlarımızdan iti qovan kimi qovurdular. Döyüş meydanında məğlub olan düşmən cəbhə bölgəsindən kilometrlərlə uzaq olan yaşayış məntəqələrimizə raket hücumları təşkil etdi. Nəticədə mülki əhali arasında itkilərimiz oldu. Erməni tərəfinin dinc əhalimizə qarşı yürütdüyü terrorizm və vandalizm əməllərinə qarşı dünya yenə səssiz qalmağı seçdi. Lakin düşmənin məkrli niyyətindən əmələ gələn vandal və barbarlığı özündə ehtiva edən fəaliyyətlər xalqımızın iradəsinə heç bir mənfi təsir göstərmədi. Əksinə, xalqımızın qisas hissini dərindən anlayan ordumuzun düşmənə vurduğu zərbələr daha sarsıdıcı oldu. Ordumuzun şəxsi heyəti şəhadətə yüksəlmiş soydaşlarımızın intiqamını almaq, onların qanını yerdə qoymamaq üçün mətin addımla irəliləyir, düşmənin qorxulu yuxusuna çevrilirdi.

Hər gün dövlət başçımızın rəsmi "Twitter" (indiki "X" platforması) hesabında haqq savaşımızla bağlı məlumatlar öz əksini tapırdı, şanlı ordumuz tərəfindən işğaldan azad edilmiş kənd və şəhərlərin adları xalqımızı sevindirirdi. Məlumdur ki, Zəfər tariximizin hər günü bir dərsdir - qətiyyət, rəşadət, sədaqət, vətənpərvərlik və həmrəylik dərsi. Ali Baş Komandanımızın qətiyyəti, ordumuzun rəşadəti, gənclərimizin vətənpərvərliyi, xalqımızın həmrəyliyi, hesabına yazılan şanlı tarixin Zəfər tacı Qarabağımızın incisi olan Şuşamızın işğaldan azad olunması ilə qoyuldu. 2020-ci il noyabrın 8-i Prezident İlham Əliyev Şəhidlər xiyabanından xalqa növbəti müraciətini etdi. "...Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır bu gün! Gözün aydın olsun, Azərbaycan! Gözünüz aydın olsun, dünya azərbaycanlıları!.." deyərək xalqın ürəyindəkini dilinə gətirən Müzəffər Ali Baş Komandan İlham Əliyev döyüş meydanında onun komandanlığı altında qazanılan qələbəni, siyasi meydanda da dərin diplomatiyası ilə təkrarlayırdı. Şuşa kimi çətin relyefdə yerləşən qala şəhərimizin Azərbaycan əsgərinin misilsiz şücaəti, qəhrəmanlığı sayəsində işğaldan azad edilməsi, artıq erməni siyasi və hərbi rəhbərliyi üçün ciddi mesaj idi. Çıxış yolunu məğlubiyyətini etiraf etməkdə görərək, 2020-ci il noyabrın 10-da Ermənistan kapitulyasiya aktına imza atdı. Üçtərəfli bəyanatın şərtlərindən biri də o oldu ki, noyabrın 20-də Ağdam, noyabrın 25-də Kəlbəcər, dekabrın 1-də Laçın bir güllə atılmadan Azərbaycana təhvil verildi.

Siyasi müstəvidə əldə olunan qələbələrdən danışarkən mütləq qeyd etmək lazımdır ki, 44 günlük haqq savaşımız müddətində qardaş Türkiyə və digər haqsevər dövlətlər mənəvi cəhətdən yanımızda oldular.

Hazırda işğaldan azad olunmuş torpaqlarımız, sonsuz sayda minalarla çirkləndirilib. Xalqımız mina terrorundan əziyyət çəkən dövlətlər sırasında ön sıralarda durur. Müharibənin başa çatmasına baxmayaraq, mülki vətəndaşlarımız və hərbçilərimiz bu terrorun qurbanı olublar. Beynəlxalq aləm bu məsələyə də konkret mövqeyini sərgiləmir, adıçəkilən məsələlərlə bağlı heç bir rəsmi bəyanat və qətnamələr qəbul edilmir. Erməni tərəfi belə olan təqdirdə üçtərəfli bəyanatın şərtlərinə əsasən üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməkdən boyun qaçırdı və vaxtı uzatmağa çalışdı. Ermənistan silahlı qüvvələrinin qalıqlarının və separatçı tör-töküntülərin nümayiş etdirdiyi qeyri-adekvat hərəkətlər "Dəmir yumruğun" yenidən işə düşməsini şərtləndirirdi. Bundan əlavə, düşmənin davam etdirdiyi təxribatlar, onların şərti sərhəddə "möhkəmlənməsi", ərazilərimizə 2021-ci il istehsalı minaların basdırılması, əzəli və əbədi torpaqlarımızda ekoloji terror, faydalı qazıntılarımızın talan olunması, ərazilərimizdə basdırılmış milyonlarla minanın düzgün xəritələrinin təqdim edilməməsi məsələləri səbrimizi daşırır, düşmənin qeyri-adekvat əməlləri hüquqi əsasla zəruri tədbirlərin görülməsini şərtləndirirdi. 2023-cü il aprelin 23-də növbəti tarixi hadisənin şahidi olduq. Laçın rayonunda Azərbaycan-Ermənistan şərti sərhədində sərhəd-buraxılış məntəqəsi quruldu. Hələ bundan sonra da erməni tərəfinin və qondarma rejimin təxribatları davam etdi. Üçtərəfli bəyanatın müddəalarının təmin olunmaması, təxribatların davam etməsi antiterror əməliyyatının keçirilməsini vacib qılırdı. 2023-cü il sentyabrın 19-da başlayan və bir gündən az vaxtda başa çatan antiterror əməliyyatı da ordumuzun tam qələbəsi ilə nəticələndi, Ermənistan silahlı birləşmələrinin qalıqları və separatçı rejim ağ bayraq qaldıraraq təslim oldular. Beləliklə, Azərbaycan Respublikasının dövlət suverenliyi tam bərpa olundu.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev qısa vaxt ərzində Xankəndi, Xocalı şəhərlərində, Əsgəran qəsəbəsi, Xocavənd və Ağdərə şəhərlərində Dövlət Bayrağımızı qaldırdı. Bu gün tam əminliklə deyə bilirik ki, Vətənimizin hər bir bölgəsində üçrəngli bayrağımız vüqarla dalğalanır. Və bundan sonra da şanlı bayrağımız Vətənimizin hüdudlarında daima dalğalanacaqdır. 2023-cü il Zəfərimizin üçüncü ildönümünün Ali Baş Komandan və qəhrəman hərbçilərimizin iştirakı ilə Xankəndi şəhərində keçirilməsi bir təsadüf deyildi. Bu həm düşmənə, həm də bizi gözü götürməyən qüvvələrə bir mesaj idi. Bu mesaj açıq və aydın idi. Qarabağ bizimdir, Qarabağ Azərbaycandır! Artıq işğaldan azad olunmuş tarixi yurd yerlərimizdə genişmiqyaslı bərpa-quruculuq işləri böyük sürətlə davam etdirilir. "Böyük Qayıdış" proqramına əsasən, artıq minlərlə soydaşımız öz ata-baba ocaqlarına qayıdıb və bu rəqəmlər gedərək artmaqdadır.

Zəfər tariximizi öz qanı və canı bahasına yazan şəhidlərimizi və döyüşlərdə sağlamlığını itirmiş silahdaşlarımızı xüsusi qeyd etmək lazımdır. Qədirbilən xalqımız son 4 ildir ki, sentyabrın 27-ni cəbhədə şəhid olan hərbçilərimizin, ölkəmizin ərazi bütövlüyü uğrunda şəhadətə yüksəlmiş oğullarımızın ruhuna ehtiram olaraq Anım Günü kimi qeyd edir. Şəhidlərimizin xatirələrini əziz tutur, onları daim hörmətlə yad edir, məzarlarına baş çəkirlər. Qürur təqvimimizi bizə yaşadan mübariz oğullarımızın şücaətindən danışmaq üçün sözlər kifayət etmir, onlar torpaqlarımızın azadlığı uğrunda gedən 44 günlük Vətən müharibəsini öz qanları ilə tarixləşdirdilər.

Şübhəsiz ki, gələcəyimizin memarları onları özlərinə əsl nümunə bilərək, qəhrəmanlarımızın adlarını bundan sonra da layiqincə daşıyacaq, öz sələflərinin Vətən sevgisini qəlblərində yaşadacaqlar.

**Kapitan**
**Fuad CƏFƏROV**
**"Azərbaycan Ordusu"**



# "Təbiətə qayğı, gələcəyə yatırım!"

*Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkədə ekoloji tarazlığın qorunması, təbii sərvətlərin dayanıqlı istifadəsi və yaşıllaşdırma sahəsində mühüm addımlar həyata keçirilir. Dövlət başçısının 2024-cü ili "Yaşıl dünya naminə həmrəylik ili" elan etməsi bu sahədə görüləcək tədbirlərə xüsusi diqqət ayıraraq, ölkə daxilində və beynəlxalq səviyyədə ətraf mühitin qorunması istiqamətində yeni mərhələni başlatdı.*






2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi ölkəmizdə həyata keçirilən uzunmüddətli və məqsədyönlü siyasətin məntiqi nəticəsidir. Azərbaycanın müstəqillik tarixinə, xüsusən son 30 illik dövrə diqqət etsək, birmənalı şəkildə və əminliklə deyə bilərik ki, ölkəmiz iqlim dəyişmələrinin fəsadlarına qarşı mübarizəyə davamlı olaraq öz töhfəsini verib. Vətən müharibəsindəki Zəfərimizdən sonra regionda yaranan yeni reallıqlar çərçivəsində, ölkəmizin uğurlu sosial-iqtisadi və siyasi nailiyyətləri, milli və multikultural dəyərləri qarşıdakı illərdə Şərqlə Qərbin qovşağı olan Azərbaycanın qüdrətinin daha da artacağına əminlik yaradır. Həmçinin bu addım Azərbaycanda ekoloji təhlükəsizliyin artırılması, meşə ərazilərinin genişləndirilməsi, şəhər və kənd ərazilərində ağac və bitki örtüyünün artırılması və ətraf mühitin qorunması istiqamətində məqsədyönlü işlər aparıldığının və bu sahəyə yüksək diqqət ayrıldığının göstəricisidir. Sərəncamın icrası ilə əlaqədar tədbirlər planına əsasən, ölkənin yaşıllıqlarının qorunması və genişləndirilməsi məqsədilə mühüm tədbirlər həyata keçirilir. İl ərzində Bakı şəhəri və müxtəlif bölgələrdə ağacəkmə aksiyaları, meşəlik ərazilərin bərpası, su ehtiyatlarının qorunması və ekoloji maarifləndirmə işləri təşkil edilir. Görülən işlər ekoloji təhlükəsizliyin qorunması və yaşıl enerji sahələrinin artırılmasında xüsusi əhəmiyyət kəsb edir. Bu tədbirlərdə dövlət qurumları, ictimai təşkilatlar, tələbələr və könüllülər iştirak edirlər. Prezident İlham Əliyevin iştirakı ilə keçirilən aksiyalar ölkədə ekoloji hərəkatın güclənməsinə şərait yaradır. Xüsusilə, iqlim dəyişikliklərinin mənfi təsirlərinin azaldılması məqsədilə innovativ texnologiyalardan istifadə olunması diqqət mərkəzindədir.

Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) Azərbaycanda keçirilməsi ölkəmizin milli, regional və qlobal səviyyədə ətraf mühitin qorunması, iqlim dəyişmələrinin qarşısının alınması işinə verdiyi töhfənin beynəlxalq ictimaiyyət tərəfindən təqdir olunmasının bariz nümunəsi və ölkəmizə olan böyük inamın təzahürüdür.

Qeyd edək ki, COP BMT İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyası insanın iqlim sisteminə təhlükəli müdaxiləsinin qarşısını almaq məqsədilə 1992-ci ilin iyununda Rio-de-Janeyro şəhərində keçirilmiş Yer Sammitində imzalanmış sazişdir. COP (Conference of Parties) abreviaturunun ingilis dilindən tərcüməsi Tərəflər Konfransı deməkdir. Tərəflər Konfransı İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının icrasına nəzarət edən ali qərarverici orqandır. Burada tərəflər Konvensiyaya üzv olan 198 ölkədir. Əgər tərəflərin fərqli qərarı olmazsa, COP hər il keçirilir. COP-un ilk tədbiri 1995-ci ilin martında Berlində baş tutub, katibliyi Bonn şəhərində yerləşir. COP-a sədrlik rotasiya əsasında BMT-nin 5 regionunun - Afrika, Asiya, Latın Amerikası, Karib Hövzəsi və Avropa (Mərkəzi, Şərqi, Qərbi və digər) ölkələrinə keçir. Həmçinin bu regionlardakı qrup ölkələri arasında da sədrliklə bağlı növbələşmə mövcuddur. Azərbaycanın təşkilata sədrliyinə dair qərar da məhz Şərqi Avropa Qrupu ölkələrinin yekdil rəyi əsasında verilib. Qeyd etmək yerinə düşər ki, COP29-a ev sahibliyi üçün Azərbaycanla yanaşı, Ermənistan və Bolqarıstan da namizədliklərini irəli sürmüşdülər. Azərbaycan Respublikası Prezidentinin Administrasiyası və Ermənistan Baş nazirinin Aparatı arasında aparılmış birbaşa danışıqlar nəticəsində ötən il dekabrın 7-də verilmiş birgə bəyanatda elan olunub ki, Ermənistan Azərbaycanın xeyrinə öz namizədliyini geri götürüb. Bundan sonra Bolqarıstan da öz namizədliyi ilə bağlı eyni addımı atıb və COP-29-a Azərbaycanın ev sahibliyi etməsi ilə bağlı yekdilliklə qərar qəbul olunmuşdu.

Bu mötəbər tədbirin Azərbaycanda keçirilməsi ölkəmizə siyasət, iqtisadiyyat, investisiya, turizm və regional liderlik də daxil olmaqla, bir çox aspektdə töhfələr verəcək. İqlim dəyişikliyi ilə mübarizə məqsədilə keçirilən tədbir beynəlxalq investisiyaları cəlb etmək və ekoloji layihələrdə əməkdaşlıq imkanlarını genişləndirmək fürsəti yaradır. Artıq Azərbaycanın bərpaolunan enerji ilə bağlı siyasəti öz bəhrəsini verməkdədir. Bununla yanaşı, konfrans zamanı keçirilən tədbirlər və aparılan müzakirələr dövlətin iqlim siyasətinin daha mütəşəkkil formalaşdırılmasında və inkişaf etməkdə olan ölkələrin ekoloji şüurunun artmasında müstəsna rol oynayacaq.

COP iqlim dəyişikliyi ilə mübarizədə çox vacib və dünyanın ən əhəmiyyətli tədbirlərindən biridir. Azərbaycanın bu tədbirə Şərqi Avropa Qrupu ölkələri arasından yekdil qərarla ev sahibi seçilməsi ölkəmizə yüksək etimadın göstəricisidir. Azərbaycan artıq beynəlxalq tədbirlərə ev sahibliyi etmək sahəsində özünə yetərincə müsbət imic qazanıb. Tədbirin Azərbaycanda keçirilməsi ilə bağlı qərar həm də ona görə əhəmiyyətlidir ki, bu, Azərbaycanın keçirdiyi antiterror əməliyyatından iki ay yarım sonra verilib. Bu isə dünya ictimaiyyətinin Azərbaycanın atdığı addımlara dəstəyindən xəbər verir. Bu tədbir Azərbaycanın neft-qaz ölkəsi olmaqla yanaşı, yaşıl iqtisadiyyatı nə dərəcədə prioritet sahə kimi gördüyünü bütün dünyaya sübut edəcək. Tədbirin Bakıda keçirilməsi Azərbaycanın nüfuzunun daha da artmasına və ölkə reallıqlarının dünya ictimaiyyətinə birbaşa və asan çatdırılmasına böyük təkan verəcək.



Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin dediyi "COP29-a ev sahibliyi edəcək ölkə kimi yekdil qərarla seçilmək bizim üçün həqiqətən, böyük şərəfdir. Biz bunu beynəlxalq ictimaiyyətin Azərbaycana və gördüyümüz işlərə, o cümlədən yaşıl enerji sahəsindəki fəaliyyətimizə hörmətinin əlaməti hesab edirik". sözləri və COP29-un Liderlər Sammitinin açılış mərasimində və kiçik ada dövlətlərinin Sammitində çıxışları Sammit iştirakçıları tərəfindən alqışlarla qarşılandı və dünya ictimaiyyətinin diqqətini çəkdi. Daha sonra dövlət başçısı Azərbaycanın iqlim dəyişikliklərinə qarşı mübarizə üzrə gördüyü tədbirlərdən bəhs etdi və ölkənin bu sahədə qlobal tərəfdaşlıqlara hazır olduğunu vurğuladı. Prezidentin bərpaolunan enerji və Azərbaycanın bu sahədə potensialı, Xəzər və Qara dəniz üzərində qurulması layihələndirilən enerji dəhlizləri barədə verdiyi məlumatlar beynəlxalq medianın xəbər gündəminə çevrildi. Azərbaycanın neft və qaz sektorunda karbon emissiyalarının azaldılması istiqamətində həyata keçirdiyi layihələr, alternativ enerji mənbələrinə keçid strategiyaları yüksək qiymətləndirildi.

Cənab Prezidentin ekoloji strategiyası yalnız daxili tədbirlərlə məhdudlaşmır. Azərbaycan beynəlxalq səviyyədə bir çox təşəbbüsün təşəbbüskarı və iştirakçısıdır. Xəzər dənizinin ekosisteminin qorunması, bərpaolunan enerji mənbələrinin genişləndirilməsi və qlobal iqlim məsələlərində fəal iştirakı ölkənin qlobal ekoloji mövqeyini gücləndirir.

Eyni zamanda, dövlətin həyata keçirdiyi proqramlar çərçivəsində kənd təsərrüfatında ekoloji təsirlərin azaldılması, suvarma sistemlərinin modernləşdirilməsi və əhalinin ekoloji maarifləndirilməsi üzrə mühüm işlər görülür. Xüsusilə, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında ekoloji bərpa layihələri həyata keçirilir ki, bu da regionun inkişafına töhfə verir.

Azərbaycan Respublikasının Müdafiə Nazirliyi də digər dövlət qurumları kimi bu mühüm sahədə fəal iştirak edərək, ekoloji problemlərin həllində önəmli addımlar atır.

Azərbaycan Ordusu cəmiyyətin ayrılmaz hissəsi olaraq, ətraf mühitin qorunmasında xüsusi rol oynayır. Hərbi hissələrdə ağacəkmə aksiyalarının keçirilməsi, yaşıllaşdırma tədbirlərinin təşkili və hərbi qulluqçular arasında ekoloji biliklərin artırılması məqsədilə maarifləndirmə işləri aparılır. Bu tədbirlər ekoloji problemlərə qarşı həssaslıq yaratmaqla yanaşı, gələcək nəsillərə sağlam və təmiz bir təbiət miras qoymağa yönəldilib.

Ağacəkmə aksiyaları çərçivəsində hərbi qulluqçular tərəfindən genişmiqyaslı tədbirlər həyata keçirilir. Hərbi hissələrin ərazisində yeni yaşıllıq sahələrinin salınması və mövcud yaşıllıq sahələrinin qorunması istiqamətində ardıcıl işlər aparılır. Bu tədbirlər təkcə hərbi hissələrin ekoloji vəziyyətini yaxşılaşdırmaqla qalmır, həm də cəmiyyət üçün müsbət nümunə yaradır.

Hərbi qulluqçulara əsasında "yaşıl dünya" mövzusunda keçirilən maarifləndirici çıxışlar bu işlərin hissəsini təşkil edir. Ətraf mühitin qorunmasının insan sağlamlığı və cəmiyyətin rifahı üçün əhəmiyyəti vurğulanaraq, hər kəsin bu məsələdə üzərinə düşən məsuliyyəti dərk etməsi təmin olunur. Müdafiə Nazirliyinin bu istiqamətdə gördüyü işlər həm hərbçilərin, həm də mülki vətəndaşların ekoloji biliklərini artıraraq onları təbiətə qayğı ilə yanaşmağa təşviq edir.

Yaşıl dünyanın qorunması və genişləndirilməsi cəmiyyət üçün əvəzolunmaz bir sərvətdir. Təmiz hava, sağlam təbiət və dayanıqlı ekosistem insanların həyat keyfiyyətini birbaşa müəyyən edir. Azərbaycan Ordusunun bu istiqamətdə göstərdiyi təşəbbüslər, dövlətin ümumi ekoloji siyasətinə töhfə verməklə yanaşı, həm də milli dəyərlərə uyğun gələn təbiət sevgisinin bir ifadəsidir.

Azərbaycan Respublikasının Müdafiə Nazirliyinin "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsindəki fəallığı, həyata keçirdiyi ağacəkmə aksiyaları, yaşıllaşdırma tədbirləri və maarifləndirici çıxışlar Azərbaycanın ekoloji problemlərlə mübarizədə qlobal təşəbbüslərə dəstək verdiyini göstərir. Bu fəaliyyətlər həm ordunun, həm də cəmiyyətin yaşıl dünyanın vacibliyini dərk etməsinə və təbiətin qorunmasına böyük töhfə verir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2024-cü ili "Yaşıl dünya naminə həmrəylik ili" elan etməsi və bu sahədə atılan addımlar Azərbaycanın ekoloji dayanıqlılığı və qlobal iqlim dəyişikliyi ilə mübarizə səylərinin gücləndiyini göstərir. Yerli və beynəlxalq səviyyədə görülən tədbirlər, həmçinin COP29 konfransında irəli sürülən təkliflər Azərbaycanın ekoloji təhlükəsizliyin təmin edilməsində nümunəvi ölkəyə çevirir. Bu təşəbbüslər gələcək nəsilləri sağlam və yaşıl mühitlə təmin etmək məqsədilə həyata keçirilən əhəmiyyətli addımlardır.

**"Azərbaycan Ordusu"**

# 25 Noyabr - Kəlbəcər Şəhəri Günüdür

Vətənimizin hər diyarı bir-birindən səfalı və gözəldir. Doğma yurdumuzun çox zəngin təbiəti, tarixi abidələri olan, qədim dövrlərdən ibarət tarixini özündə saxlayan qədim diyarlarından biri də dağlar qoynunda yerləşən Kəlbəcər rayonudur. Kəlbəcər həm təbii sərvətlərinin zənginliyinə, həm də iqliminin gözəlliyinə görə seçilən rayonlarımızdan olub.



Təəssüflər olsun ki, 1993-cü il 2 aprel tarixində Ermənistan Respublikasının silahlı qüvvələri tərəfindən Kəlbəcər rayonu işğal edilmişdi. İşğal nəticəsində 511 dinc sakin öldürülmüş, 321 nəfər əsir götürülmüş və itkin düşmüşdü. İşğalçılar onlarla tarixi mədəniyyət abidəsini, 97 məktəbi, 9 uşaq bağçasını, 116 kitabxananı, 43 klubu, 42 mədəniyyət evini, tarix-diyarşünaslıq muzeyini, 9 xəstəxananı, 75 tibb məntəqəsini, 23 ambulatoriyanı, 9 apteki, yüzlərlə inzibati binanı, minlərlə evi, çoxlu sayda texnikanı talan edib, dağıdıb və rayonun milyardlarla manatlıq sərvətini Ermənistana daşıyıblar.

Otuz ilə yaxın erməni vandalları tərfindən işğalda saxlanılan Kəlbəcər rayonu 2020-ci il noyabrın 25-də azad olundu. Prezident İlham Əliyevin 2023-cü il iyulun 31-də imzaladığı Sərəncama əsasən, bu şanlı tarix hər il Kəlbəcər Şəhəri Günü kimi qeyd olunur.

Bu gün Azərbaycanın dilbər guşələrindən olan Kəlbəcərin işğaldan azad edilməsindən dörd il ötür. 44 günlük Vətən müharibəsində Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin sərkərdəliyi ilə ordumuzun şanlı Zəfəri Ermənistanı kapitulyasiya aktını imzalamağa və əraziləri boşaltmağa məcbur etdi. Beləliklə, Kəlbəcər və Laçın rayonları, Ağdam rayonunun işğal altında qalan hissəsi bir güllə atılmadan mərhələli şəkildə Azərbaycana təhvil verildi. Üçtərəfli bəyanata əsasən, 2020-ci il noyabrın 25-də Kəlbəcər şəhəri də daxil olmaqla, rayonun 147 yaşayış məntəqəsi işğaldan azad edildi.

Kəlbəcərdə erməni vəhşiliyinin izləri hər addımda görünür. Dağıntı və talanlar həm işğal dövründə, həm də 2020-ci ildə ermənilər rayondan çıxarkən davam etdirilib. İşğaldan azad olunan Kəlbəcərə səfər edən Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyev bu barədə danışarkən deyib: "Baxın, görün, şəhər ermənilər tərəfindən tamamilə dağıdılmışdır. Vəhşi ermənilər başqa şəhər və kəndlərimiz kimi, Kəlbəcəri də dağıdıblar. Bütün binalar dağıdılıb. Bəzi binalarda ermənilər qanunsuz yaşayırdılar. Buradan çıxanda o binaları da yandırıb, sökdülər. Vaxt dəyişir, amma erməni faşizminin eybəcər sifəti dəyişmir. 1990-cı illərin əvvəllərində bu torpaqları işğal edərkən bizim şəhər və kəndlərimizi dağıtmışdılar. 2020-ci ildə bunlari buradan qovanda da gedə-gedə ağacları kəsib, yandırıb, binaları dağıdıblar".

Qeyd edək ki, İkinci Qarabağ müharibəsinin ilk günlərində Kəlbəcərin şimal hissəsi Azərbaycan Silahlı Qüvvələri tərəfindən azad olunmuşdu. Murov dağının ərazisində və ətraf yerlərdə şiddətli döyüşlər nəticəsində strateji yüksəkliklərin azad edilməsi həmin istiqamətdə erməni silahlı qüvvələrinin hərəkətlərini xeyli dərəcədə məhdudlaşdırmağa imkan yaratdı. Əks-hücum əməliyyatının tərkib hissəsi olan bu əməliyyatların gedişində Kəlbəcərin bir hissəsi döyüş meydanında azad edildi, amma əksər hissəsi Ermənistan kapitulyasiya aktına imza atandan sonra azadlığına qovuşdu. 2021-ci il avqustun 16-da Prezident İlham Əliyev Kəlbəcər şəhərində Dövlət Bayrağımızı ucaltdı və çıxışında bu tarixi hadisənin əhəmiyyətindən bəhs edərək dedi: "Ermənilər 30 il ərzində bizim torpaqlarımızı ancaq istismar edirdi, təbii sərvətləri talayırdı, evləri dağıdırdı, sökürdü. Sonra da deyirdi ki, bura erməni torpağıdır. Bura heç vaxt erməni torpağı olmayıb və bundan sonra heç vaxt olmayacaq. Bu, Azərbaycan torpağıdır. Biz azərbaycanlılar - bu torpaqların sahibləri qayıtmışıq. Düşməni torpağımızdan qovaraq, düşmən ordusunu məhv edərək, qəhrəmanlıq, fədakarlıq göstərərək qayıtmışıq".

Kəlbəcər zəngin təbii sərvətləri və gözəl təbiəti olan diyardır. Rayonun əlverişli relyefi, saf dağ iqlimi, mineral suları, o cümlədən Yuxarı İstisu, Aşağı İstisu kimi müalicəvi mineral su yataqları burada turizmin inkişafı üçün geniş imkanlar yaradır. Kəlbəcər həm də turistlərdə maraq yarada biləcək bir çox tarixi abidələrlə zəngindir. Burada 30 min ildən çox tarixi olan qədim yaşayış məskənləri, 6 min il yaşı olan qaya təsvirləri, qədim türk əlifbası nümunələri aşkar edilib. Buradakı daş abidələr Şimali Azərbaycanda erkən dövr türklüyün, atəşpərəstliyin, xristianlığın, VII əsrdən isə İslamın yayıldığı dövrlərin yadigarlarıdır.

Otuz il əvvəl məcburi köçkünə çevrilərək respublikanın 56 rayonunun 770 yaşayış məntəqəsində müvəqqəti məskunlaşmış kəlbəcərlilər doğma yurda qayıdacaqları günü gözləyirlər. Bu məqsədlə işğaldan azad edilmiş digər ərazilərimizdə olduğu kimi, Kəlbəcərdə də genişmiqyaslı bərpa-quruculuq işləri aparılır. Kəlbəcər rayonunda aparılan nəhəng quruculuq işləri bu diyarın gözəl gələcəyindən, azad olunmuş ərazilərə "Böyük Qayıdış"ın uğurlu perspektivlərindən xəbər verir.

Kəlbəcər rayonuna səfəri çərçivəsində komando hərbi hissəsinə döyüş bayrağının verilməsinə həsr olunmuş təntənəli mərasimdə çıxış edən Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin dediyi sözləri xatırlayırıq: "Bu gün bu hərbi hissənin açılması bir daha göstərir ki, biz istədiyimizə nail olacağıq - Qarabağı və Şərqi Zəngəzuru bərpa edəcəyik. Artıq bu proses başlamışdır və ilk növbədə, bu bölgədə - Qarabağda və Şərqi Zəngəzurda bizim hərbi gücümüz daim möhkəm olmalıdır. Ona görə bugünkü mərasim xüsusi məna daşıyır, rəmzi məna daşıyır".

Dövlətimizin qüdrəti, ordumuzun gücü, hərbi qulluqçularımızın rəşadəti və vətənpərvərliyi, xalqımızın birliyi sayəsində İkinci Qarabağ müharibəsində qazanılan tarixi Zəfərdən sonra işğaldan azad edilmiş digər ərazilərimizdə olduğu kimi, Kəlbəcərdə də həyat yenidən canlanır. Dövlət başçısının Kəlbəcər rayonuna dəfələrlə reallaşdırdığı səfərlərin hər biri Böyük Qayıdışın sürətlənməsinə xidmət edən töhfələrlə zəngindir.

**"Azərbaycan Ordusu"**

# Qəhrəmanlıq

*Müharibə döyüşlərdi, ədalətli müharibələr də ruhun işğalçılıqla döyüşüdü. Ruhun işığında döyüşənlərin döyüşü qəhrəmanlıqdı. Min illərdi belədi, torpaqlara sərhəd düşəli xalqın ruhu əsgərləşib. Ruhu əsgərləşən xalqın torpağa görə - Vətənə görə döyüş əzmi dönməz, qələbə ruhu - kükrək və coşqun olub. Dədə Qorqud öyüdüylə yaşayan xalq torpağı əkib-becərib də, qoruyub da...*

Dövlətçiliyin tarixi sərhədlərdən başlayır. Yadellilərlə döyüşlər də sərhəddən başlayır, qəhrəmanlıqların tarixinin başlanğıcı da sərhədlərlə bağlıdı. Döyüşlərlə yazılan tarix qüdrətdi, yeniyetmələr bu qüdrətin işığında böyüyür, gəncləşir, cavanlar bu işığın əhatəsində əsgərləşir. Orta əsrlərdə də belə olub, xanlıqlar dövründə də, cümhuriyyət vaxtında da. İmperiya 1920-ci ilin mayında Azərbaycanın dövlət müstəqilliyini ilhaq etmişdi, ancaq azadlıq, müstəqillik mübarizəsinin ruhunun üstündə yel əsdirə bilməmişdi. SSRİ dönəmində də xalq mübarizədəydi, Lefortovo, Sibir hədələrinə - imperiyanın xəyanət, qəddarlıq xislətinə görə bu mübarizə müəyyən həddə gizlinləşdirilmişdi, ruh yaşayırdı, ruh yaşadırdı. Ruhun yaşadılması da qəhrəmanlıq idi...

Ermənistan Moskvanın siyasi (gizlin, gizlin qiyafəsində aşkar!) dəstəyindən bəhrələnərək Qarabağı Azərbaycandan ayırmaq, öz ərazilərinə birləşdirmək üçün nələrə əl atmırdı? Bunların qarşısını almaq da qəhrəmanlıq idi.

Bakıda ilk mitinqlər başladı. Xalqın azadlıq, müstəqillik mübarizəsi "Biz varıq!" dedi, "Biz var olacağıq!" dedi. Milyonların səsi ilə dedi, milyonların düyülən yumruqları ilə dedi. Bu da qəhrəmanlıq idi. SSRİ hökuməti bu coşqudan qorxdu, varlığını saxlamaq üçün Bakıya qoşun yeritdi. Xalq bu xəyanətin qarşısından geri çəkilmədi. İmperiya ordusunun hissələri milli-azadlıq hərəkatını dayandırmaq, coşqusunu söndürmək, xalqın ruhunu üyüşdürmək üçün Bakıda, iri şəhərlərdə qırğınlar törətdi. Xalq çəkinmədi, xalq geri çəkilmədi. Bu da qəhrəmanlıq idi...

Vətən dara düşəndə qəhrəmanlıq qınından sıyrılan qılınca dönür...

Qəhrəmanlıq qələbə deməkdi. Xalq döyüşçüsündən qələbə istəyir. Döyüşçü xalqın istəyini gerçəkləşdirmək üçün mümkünsüzü də qəhrəmanlığıyla mümkünləşdirir. Xalqın nəfəsi döyüşçünün kürəyini ruhən isidəndə, döyüşçü xalqın qayibanə səsini eşidəndə - "Qoluna qüvvət, igid!", zabit əsgərinin qələbə ruhunu bayraqlaşdıranda, əsgər sərkərdəsinə, sərkərdə əsgərlərinə güvənəndə qələbə qazanılır. Bu da qəhrəmanlıqdı...

Qəhrəmanlıq hamının edə bilmədiyini etməkdi - Vətən müharibəsində döyüşçülərimizin hamısı belə döyüşürdü, Vətən üçün döyüşürdü, döyüşçü yoldaşını mühafizə edərək döyüşürdü, bu döyüşlər qəhrəmanlıq idi. Döyüşçülərimiz düşmənin müdafiə sədlərini dağıda-dağıda döyüşürdü - qəhrəmanlıq idi. İşğal olunmuş ərazilərimizin də gecələrinin nurlu səhərləri üçün döyüşürdü, qəhrəmanlıq idi. Torpağın yaralanmaması üçün düşmənin gülləsini sinəsiylə soyudurdu - qəhrəmanlıq idi. Qəhrəmanlıq döyüşçü amalıdı, işğalın gətirdiyi siyasət dumanını dağıtmaq niyyətidi...

Birinci Qarabağ müharibəsində Vəzir Orucovun, Əliyar Əliyevin, Tofiq Hüseynovun, Yusif Mirzəyevin, Albert Aqaronovun, İsgəndər Aznaurovun, ... döyüşlərini xatırlayıram. Bir də 1994-cü ilin 4 yanvarını, taqım komandiri Etibar İsmayılovu xatırlayıram:

Taqıma Nərgiztəpə istiqamətində düşmənin arxasına keçmək, mühüm döyüş tapşırığını yerinə yetirmək əmr olunmuşdu. Əməliyyata başlama ərəfəsində qrup mühasirəyə düşmüşdü. Mühasirədən çıxmaq üçün döyüşmüşdülər.

Etibar İsmayılov cinahda döyüşürdü, düşmənin diqqətini özünə çəkib döyüşürdü ki, döyüşçülər mühasirəni yara bilsinlər. Düşmənin döyüş texnikalarından atılan mərmilərin qəlpələrindən üç döyüşçümüz şəhid olmuşdu, beş döyüşçümüz ağır yaralanmışdı. Etibar son çarə kimi tankəleyhinə qumbaranı götürüb düşmənin tankına tərəf getmişdi, düşmən hiss etməsin deyə tanka sürünə-sürünə yaxınlaşmışdı. Anidən dikəlmişdi. Qumbara ilə birlikdə tankın altına atılmışdı. Düşmənin tankı alışmışdı... Qəhrəmanlıq idi!..

Vətən müharibəsindən əvvəl düşmənin səngərini çığnayan Mübariz İbrahimovun, Çingiz Qurbanovun qəhrəmanlıqlarını xatırlayıram, Vətən müharibəsində hər döyüşü qəhrəmanlıq olan döyüşənləri, hər şəhidliyi Vətənə sevginin bayrağı olan döyüşləri xatırlayıram...

İki əsgər vardı - Ziyəddin və Kəramət. Hərbi xidmətə eyni gündə gəlmişdilər. Eyni taqımda xidmət edirdilər...

Müharibə başladı. Ziyəddin də, Kəramət də döyüşlərdəydi. Füzuli istiqamətində döyüşürdülər. Komandirləri ikisinə və daha iki döyüşçüyə döyüşlə sol tərəfdən düşmənin diqqətini yayındırmaq əmri vermişdi. Həmin tərəfdə döyüşürdülər...

Ziyəddin hiss etdi ki, Kəramətin avtomatı susdu. Ona tərəf süründü. Sürünə-sürünə səslədi. Kəramətin səsi gəlmədi. Bir də səslədi. Güllə səsləri içində səssizlikdən ürəyi sıxıldı. Sürünə-sürünə dostuna yetişmək, onun hoyuna çatmaq istədi...

Dostunun gəlişini duyan Kəramət azca dikəldi. Elə bil gözlərinin işığı artdı. Həzin-həzin əsən meh ümidinin köynəyinə döndü, göynəyinin məlhəminə. Dirsəklənmək istədi. Ağrılar imkan vermədi. Son nəfəsində döyüşlər gedən tərəfə baxdı, sonra - Ziyəddinə...

Ziyəddin də, Kəramət də şəhid oldu. Qəhrəmanlıqla döyüşmüşdülər. Qəhrəmanlıqla şəhid olmuşdular...

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin dediyi kimi, döyüşçülərimiz dağlardan, meşələrdən, dərələrədən keçərək, onlarla kilometr məsafəni qət edərək, yol boyunca kəndləri, qəsəbələri düşməndən azad edərək, Daşaltı kəndini düşməndən təmizləyərək Şuşanı işğaldan azad etdi - qəhrəmanlıqdır. Ordu hissələrimiz dağların sərtini nərdivan eləyib Şuşaya daxil oldular - qəhrəmanlıqdır...

Vətən müharibəsinin hər döyüşü qəhrəmanlıq döyüşü oldu, hər döyüşçüsü isə qəhrəman...

**Rəşid HÜSEYNOV**
**"Azərbaycan Ordusu"**

## Maraq dünyamız

# Alimlər insan skeletinin inkişafı planını hazırlayıblar

*Alimlər insan sağlamlığını daha yaxşı başa düşmək, xəstəliklərin diaqnozu və müalicəsi üçün bədəndəki hər bir hüceyrə növündən ibarət bioloji atlası tamamlamaq məqsədinə doğru irəliləyərkən insan skeletinin inkişafının ilk planını açıqlayıblar.*



Bu plan 2016-cı ildə başlanmış və dünyanın hər yerindən tədqiqatçıları cəlb edən İnsan Hüceyrə Atlası layihəsinin bir hissəsidir. İnsan bədəni təxminən 37 trilyon hüceyrədən ibarətdir və hər bir hüceyrə növü özünəməxsus funksiyaya malikdir.

Tədqiqatçılar növbəti və ya iki il ərzində atlasın ilk layihəsini hazırlamağı hədəfləyirlər. Tədqiqatın rəhbəri Aviv Regev layihənin "Biotech" şirkəti və "Genentech" laboratoriyası tərəfindən aparıldığını bildirib. O deyib: "İlk növbədə, bu, bizim əsas insani marağımızdır. Biz nədən yaradıldığımızı bilmək istəyirik. Məncə, insanlar həmişə bunu öyrənmək istəyiblər. Əslində, bioloqlar 1600-cü illərdən bəri hüceyrələrin xəritəsini çəkirlər. İkinci və çox praqmatik səbəb odur ki, bu atlas xəstəlikləri başa düşmək və müalicə etmək üçün vacibdir. Hüceyrələr həyatın əsas vahididir və hər şey səhv gedəndə, ilk növbədə, bizim hüceyrələrimizdə yanlışlıq olur".

Tədqiqatçılar hamiləliyin ilk trimestrində skeletin inkişafının xəritəsini tərtib edərək, bütün hüceyrələri, gen şəbəkələrinin qarşılıqlı təsirlərini və insan inkişafının ilkin mərhələlərində sümük böyüməsi ilə məşğul olan amilləri təsvir etməyə imkan verir.

Onlar qığırdağın kəllə sümüyünün yuxarı hissəsindən başqa, skelet boyunca sümük inkişafı prosesini nümayiş etdiriblər. Alimlər kəllə formalaşması üçün kritik olan bütün hüceyrələrin xəritəsini çəkiblər və genetik mutasiyaların yeni doğulmuş körpənin kəllə sümüyünün yumşaq ləkələrinin çox erkən birləşməsinə və inkişaf etməkdə olan beynin böyüməsini məhdudlaşdırmasına səbəb ola biləcəyini araşdırıblar.

Tədqiqatçıların fikrincə, bu hüceyrələr haqqında bilik anadangəlmə şərtləri müəyyən etmək və müalicə etmək üçün diaqnostik və terapevtik hədəf kimi istifadə edilə bilər. Onlar, həmçinin erkən sümük hüceyrələrində aktivləşdirilmiş müəyyən genlərin yetkinlik dövründə bud-çanaq artritinin inkişaf riskinin artması ilə əlaqəli ola biləcəyini kəşf ediblər.

Alimlər ağız toxumalarından yemək borusu, mədə, bağırsaqlar və yoğun bağırsağa qədər uzanan mədə-bağırsaq traktının atlasını da tədqim ediblər. Eyni zamanda, onlar Kron xəstəliyi və xoralı kolit kimi vəziyyətlər üçün potensial olaraq dərinləşə bilən iltihabda iştirak edə bilən bağırsaq hüceyrəsi növünü müəyyən ediblər.

**AZƏRTAC**

# İdman

### "Mançester Siti" Qvardiola ilə müqavilə müddətini uzadıb



İngiltərənin "Mançester Siti" komandası baş məşqçisi Pep Qvardiola ilə müqavilə müddətini uzadıb.

Bu barədə klubun rəsmi saytı məlumat yayıb. İspaniyalı mütəxəssis 2026-cı ilin yayınadək "şəhərlilər"ə rəhbərlik edəcək. Müqavilənin şərtlərinə görə, tərəflər arasındakı əməkdaşlıq növbəti mövsümün sonunda daha bir il artırıla bilər.

Qeyd edək ki, Pep Qvardiola 2016-cı ildən "Mançester Siti"nin baş məşqçisi postunda çalışır.

### Azərbaycanı Avropa Kubokunda 8 karateçi təmsil edəcək



Karatenin fullkontakt kyokuşin növü üzrə Avropa Kubokunda iştirak edəcək Azərbaycan milli komandasının üzvləri Belçikanın Antverpen şəhərinə yola düşüblər.

Yığma yarışda 8 idmançı ilə təmsil olunacaq. Karateçilər baş məşqçi Samir Məmmədovun rəhbərliyi altında mübarizə aparacaqlar. Azərbaycanlı hakim Mail Abdullayev isə ədaləti qoruyacaq.

Qeyd edək ki, Avropa Kubokunda ilk üç yeri tutan karateçilər dünya çempionatına lisenziya qazanacaqlar.

### Azərbaycan güləşçilərinin U-23 dünya çempionatlarında qazandıqları medal sayı açıqlanıb




Azərbaycan güləşçilərinin 2017-ci ildən keçirilən U-23 dünya çempionatlarında qazandıqları medal sayı açıqlanıb.

İdmançılar geridə qalan 7 il ərzində 51 dəfə fərqli kürsüyə qalxıblar. Bunlardan 7-si qızıl, 19-u gümüş, 25-i bürünc mükafat olub.

Azərbaycan millisi medalların əyarına görə dünyada 8-ci, sayına görə isə 6-cı yerdə qərarlaşıb.

### UEFA İsveç-Azərbaycan oyununda hakim səhvi olduğunu etiraf edib



UEFA Millətlər Liqasının C Divizionunun 1-ci qrupunda İsveç və Azərbaycan yığmaları arasında keçirilmiş VI tur oyununda (6:0) VAR hakimlərinin nəticəyə təsir edən səhvə yol verdiklərini etiraf edib.

İlk hissənin əsas vaxtına əlavə olunmuş 2-ci dəqiqədə meydan sahibi komandanın hücumçusu Aleksandr İsakın vurduğu qolun ofsayd səbəbindən qeydə alınmamasının yanlış qərar olduğu təsdiqlənib.

UEFA-nın həmin epizodla bağlı açıqlamasında ofsayd xəttinin düzgün çəkilmədiyi və bunun videokökəkçi hakimin səhvi olduğu bildirilib.

Qeyd edək ki, oyundan sonra Aleksandr İsak da qərarın doğru olmadığını vurğulamışdı.

**AZƏRTAC-ın materialları əsasında**

# Xəbərlər: hadisələr, faktlar

### Pakistanda silahlı şəxslərin minik avtomobillərinə hücumu nəticəsində 38 nəfər ölüb



Pakistanın şimal-qərbində yerləşən Hayber-Paxtunxva əyalətinin Kurram rayonunda naməlum silahlı şəxslərin minik avtomobillərinə atəş açması nəticəsində 38 nəfər ölüb, ondan çox insan yaralanıb.

Əyalət rəhbərinin mətbuat xidməti silahlı şəxslərin əvvəlcə polisi hədəf aldığını bildirib.

Məlumata görə, ölənlər arasında bir qadın və bir uşaq var. Yaralılar xəstəxanaya yerləşdirilib.

### "The Times": Britaniya total müdafiəyə hazır deyil

Böyük Britaniya müharibə vəziyyətində "total müdafiəyə" hazır deyil və müdafiəni planlaşdırmağı İsveçdən öyrənməlidir.

"The Times" qəzeti bu barədə Böyük Britaniya Silahlı Qüvvələrinin Müdafiə Qərargahının rəisi, admiral Toni Radakindən sitat gətirib.

O, Böyük Britaniyanın müharibəyə "vətəndaş hazırlığı" məsələsində hələ müttəfiqlərinə çatmadığını və onların təcrübəsinə ehtiyac olduğunu vurğulayıb. "Etiraf etmək lazımdır ki, Böyük Britaniya bu istiqamətdə Skandinaviya və Baltikyanı ölkələrdən daha zəif vəziyyətdədir", - deyə admiral bildirib.

Nəşrin məlumatına görə, NATO ölkələrinin hakimiyyət orqanları vətəndaşları və müəssisələri ümumi müdafiənin təmin edilməsinin bir hissəsi olaraq müharibəyə hazırlaşmağa getdikcə daha çox çağırırlar.



Bir müddət öncə, İsveçin Mülki Müdafiə və Fövqəladə Halların İdarə Olunması İdarəsi vətəndaşların müharibə zamanı necə davranmalı, bir həftə oflayn rejimdə yaşamaq üçün əvvəlcədən hansı ərzaq ehtiyatı və digər zəruri əşyalar hazırlanmalı olduğunu göstərən təlimatlar dərc edib. Son aylar Norveç, Finlandiya və Danimarka da oxşar addımlar atıb.

### Finlandiyada çovğun 70 min evi elektriksiz qoyub



Bu gün səhər yağan güclü qar səbəbindən Finlandiyanın bir sıra bölgələrində (184 rayonda) təxminən 70 min ev elektrik enerjisiz qalıb.

Çovğun nəticəsində ağaclar infrastruktur obyektlərinin üstünə aşıb, elektrik xətləri sıradan çıxıb və böyük şəhərlər arasında dəmir yolu əlaqəsi kəsilib.

Elektrik enerjisinin kəsilməsi, eyni zamanda bütün Finlandiyada mobil şəbəkə stansiyalarının fəaliyyətinin dayanmasına səbəb olub. Finavia şirkəti Stokholm və Kopenhagenə bir sıra reyslərin ləğv edildiyini, Amsterdam və Londona uçuşların isə gecikdiyini bildirib.

Meteoroloqlar Finlandiyanı vuran qasırğaya "Yari" adı veriblər. Ölkənin cənub bölgələrində kəskin hava şəraitinin davam edəcəyi gözlənilir.

### Türkiyəyə məxsus gəmi husilərin hücumuna məruz qalıb



Türkiyəyə məxsus və Panama bayrağı altında üzən quru yük gəmisi Yəmənin "Ənsar Allah" üsyançı hərəkatından olan husilərin hücumuna məruz qalıb.

Bununla bağlı Türkiyənin Xarici İşlər Nazirliyi bəyanat yayıb.

Mətndə bildirilib ki, "Anadolu S" gəmisi noyabrın 20-də Yəmən sularında hərəkətdə olduğu zaman husilər tərəfindən raket hücumuna məruz qalıb.

Nazirlik bənzər hadisənin təkrar meydana gəlməməsi üçün zəruri tədbirlərin görülürdüyünü bildirib.

**AZƏRTAC-ın materialları əsasında**

Gizir Ağayev Hakim Arif oğluna verilmiş SQ № 0025617 nömrəli vəsiqə itdiyi üçün etibarsız sayılır.

**Məsul katib**
mayor
Ceyhun CƏFƏRLİ

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, Yasamal rayonu,
Şəfaət Mehdiyev küçəsi 144,
"Qızıl Şərq" hərbi şəhərciyi

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

"Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək həftədə iki dəfə (III və VI günlər) Müdafiə Nazirliyinin Hərbi Nəşriyyatının mətbəəsində hazır diapozitivlərdən çap olunur. Təqdim edilən əlyazmalara rəy verilmir, müəllifə qaytarılmır. Qəzeti Müdafiə Nazirliyinin rəsmi internet səhifəsindən (www.mod.gov.az) oxuya bilərsiniz.

**Növbətçi**
kapitan
Fuad CƏFƏROV

Lisenziya № 361
Sifariş № 676
Nüsxə 4650